**“Ümumdünya Statistika Günü” ilə əlaqədar 19 oktyabr 2015-ci il tarixdə Binəqədi Rayon Statistika Şöbəsi tərəfindən keçirilən tədbir.**



Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin nümayəndəsi Nicat Allahverdiyev və Bakı Şəhər Statistika İdarəsinin nümayəndəsi Əhməd Vəkilov və Binəqədi Rayon Statistika Şöbəsinin bütün əməkdaşları iştirak edirlər.

Tədbiri Binəqədi Rayon Statistika Şöbəsinin rəisi Hamlet Məmmədov giriş nitqi ilə açaraq bildirmişdir ki, BMT-nin Baş Məclisi tərəfindən 2015-ci il 20 oktyabr tarixi “Daha təkmil Statistika – daha yaxşı həyat” devizi altında “Ümumdünya Statistika Günü” elan olunmuşdur.

Statistiklərin bu bayramı Dövlət Statistika Komitəsinin sədri cənab Tahir Budaqovun tapşırığına müvafiq olaraq, bütün rayonlarda qeyd olunur. İndiki tədbir də Ümumdünya Statistika günü münasibəti ilə keçirilir. Tədbirdə iştirak etdiklərinə görə Binəqədi Rayon Statistika Şöbəsinin kollektivi adından minnətdarlığını bildirmişdir.

Statistika həyatımızın və iqtisadiyyatımızın aynasıdır.

Bildiyiniz kimi, əhali ilə bağlı keçirilən siyahıyaalmalar və ev təsərrüfatlarında gəlirlər və xərclərin, miqrasiya, təbii artım, gender siyasətinə və iqtisadiyyatın bütün sahələrinə aid göstəricilər əsasında dövlət proqramları qəbul olunur və icra edilir.

Göstəricilərin doğru-düzgünlüyü əsas məsələ kimi, həmişə statistiklər qarşısında qoyulur.

Biz statistiklər fədakarlıqla bu işin öhdəsindən həmişə gəlmişik.

Sözsüz ki, müəssisə nümayəndələrinin əməkdaşlığı çərçivəsində fürsətdən istifadə edirəm, Sizin adınızdan Dövlət Statistika Komitəsinın bütün əməkdaşlarını, rayon strukturlarında çalışan statistikləri “Ümumdünya Statistika günü” münasibətilə təbrik edib və işlərində uğurlar arzuladı.

Dövlətimiz və hökumətimiz tərəfindən statistiklərin əməyi həmişə qiymətləndirilmişdir.

Hörmətli Prezidentimiz cənab İlham Əliyev 17 oktyabr 2015-ci il tarixli sərəncamı ilə DSK-nin rəhbər işçilərini və bir qrup əməkdaşlarını, ümumilikdə 22 nəfəri orden və medallarla təltif etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkə statistiklərinin yaddaşına həkk olunmuş “Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır.” Məşhur kəlamı Statistika Komitəsinə verilən qiymətin bariz nümunəsidir.



Binəqədi rayon Statistika Şöbəsinin məsləhətçisi Aqil Hüseynov də tədbirdə iştirak edərək statistikanın tarixinə nəzər salmışdır.

Çıxışında bildirdi ki, Azərbaycanın müstəqilliyi, yeni sosial, iqtisadi və siyasi şərait, Azərbaycanın Avropa Şurasına daxil olması və onun beynəlxalq əlaqələrinin genişlənməsi başqa sahələrdə olduğu kimi, statistika elminin, statistik məlumatların keyfiyyətinin yüksəldilməsinə, ölkədə uzunmüddətli statistik sıraların

yaradılmasına, bununla da son yüzillikdə ölkənin statistika tarixinə və tarixi statistik külliyyatların yaradılmasına tələbat yaratmışdır. Arxiv materialları, "Azərbaycan tarixi" kitabları və bir sıra digər nəşrlərlə tanışlıq göstərir ki, tarixçilər hələ 19-cu əsrin əvvəllərində Azərbaycanda əhali, sənaye, kənd təsərrüfatı, ticarət, xarici ticarət və s. haqqında çoxsaylı statistik məlumatlara istinad etmiş və araşdırmalar aparmışlar.



XIX əsrin sonu XX əsrin əvvəlləri statistika tarixində müxtəlif müayinələrin və siyahıyaalmaların təşkili və keçirilməsi ilə xarakterizə olunur. Həmin işlərdən, Şimali Azərbaycan ərazisi də daxil olmaqla, çar Rusiyasının bütün ərazisində 1897-ci ilin fevral ayının 9-u vəziyyətinə birinci ümumi siyahıyaalmanın keçirilməsini qeyd etmək lazımdır. Bundan əlavə, kənd təsərrüfatı statistikası sahəsində kəndli təsərrüfat-larının həyətlər üzrə siyahıyaalınması, 1903 və 1910-cu illərdə kənd təsərrüfatı maşın və alətlərinin siyahıyaalınması keçirilmişdir. 1904-cü ildən başlayaraq, hər il mal-qaranın sayı haqqında məlumatlar toplanmışdır. 1900 və 1908-ci illərdə sənaye statistikası sahəsində də siyahıyaalmalar keçirilmişdir. 1920-ci ilə qədər olan dövrdə Azərbaycan ərazisində statistika üzrə yaradılmış qurumların fəaliyyəti və ölkə ərazisində iqtisadi və mədəni vəziyyət haqqında çox az statistik məlumatlar qorunub saxlanmışdır.

1920-ci ildən əvvəlki dövrə aid bir sıra göstəricilər qorunub saxlanmışdır ki, bu göstəricilər sonradan mütəxəssislər tərəfindən yenidən işlənmiş və mövcud metodologiya əsasında müqayisəliliyə gətirilmişdir. Sonrakı dövrlərdə Azərbaycanın sosial və iqtisadi inkişafını təhlil etmək üçün bu göstəricilərdən istifadə edilmişdir.

1917-1920-ci illərdə Azərbaycanda ayrı-ayrı yerli dövlət qurumlarında statistika şöbələri yaradılmış və fəaliyyət göstərmişdir.

Böyük Vətən Müharibəsi statistika işləri proqramına, müşahidə metodlarına və statistik materialların işlənməsinə xeyli dəyişikliklər etdi. Bununla yanaşı, işlərin icrasının təciliiliyinə tələbat artmışdı. Böyük Vətən Müharibəsi dövründə ölkə Statistika İdarəsinin fəaliyyəti hərbi dövr şəraitində təxirəsalınmaz vəzifələrin həlli üçün operativliyin yüksəldilməsinə, statistik məlumatların yığılması və işlənməsi vaxtının ixtisara salınmasına, istehsal avadanlıqlarının və materiallarının qısa proqramlar üzrə təcili siyahıyaalmalarının keçirilməsinə, Azərbaycanda mövcud olan bütün ehtiyatların tapılması və səfərbər olunmasının təmin edilməsinə yönəldilmişdir. Bu dövrdə xammal və material ehtiyatlarının, nəqliyyat parklarının, yüklərin, yanacağın mövcudluğunun təcili siyahıyaalınması, əhalinin sayı və tərkibinin, o cümlədən: köçürülmüş əhali, talon sistemi ilə təchiz edilmə, əhalinin sayı haqqında aylıq hesablamalar birinci dərəcəli iş olmuşdur.

1950-ci illərin əvvəllərində xalq təsərrüfatının bərpası və inkişafı illəri olmuş və statistikanın rolu daha da artmışdı. Rayon və şəhərlərin dinamika sıralarının və iqtisadi göstəricilər pasportlarının aparılmasına başlanmışdı. Bu dövrdə statistika işlərinin yeni növləri: əmək ehtiyatları balansı, əhalinin gəlirləri və xərcləri balansı, kənd təsərrüfatı məhsullarının hesablanması və s. meydana gəlmişdir.



Bu illərdə MSİ-nin və onun yerli statistika orqanlarının işinin səviyyəsi ölçülməz dərəcədə yüksəlmişdi. Statistika orqanları tərəfindən hazırlanan materiallar: statistik məlumatlar, cədvəllər və bülletenlər, təhlili yazılar və məruzələr mütəmadi olaraq rəhbəredici orqanlar tərəfindən istifadə olunurdu. Hesabat intizamının möhkəmləndirilməsi, ilkin uçotun qaydaya salınması və keyfiyyətinin yüksəldilməsi üzrə böyük işlər həyata keçirilir, hesabat məlumatlarının artıq yazılması və digər təhrifetmələrə qarşı mübarizə aparılırdı. MSİ-nin və onun yerli statistika orqanlarının nüfuzu yüksəlir və artırdı. XX əsrin 50-ci illərindən xalq təsərrüfatının inkişafı ilə əlaqədar olaraq respublikanın statistika orqanları daha irimiqyaslı və mürəkkəb statistik işlərin yerinə yetirilməsini həyata keçirməyə başladılar. Belə işlərə 1959 və 1970-ci illərdə əhalinin Ümumittifaq siyahıyaalınmalarını, 1960-cı ildə əsas fondların siyahıyaalınmasını və yenidən qiymətləndirilməsini göstərmək olar.

Qeyd etmək lazımdır ki, ölkədə statistika orqanlarının strukturu həmişə inzibati-ərazi bölgüsünə uyğun qurulurdu. Sənaye, kənd təsərrüfatı, əsaslı tikinti, nəqliyyat, maddi-texniki təchizat və digər statistika sahələri üzrə mərkəzləşdirilmiş statistika hesabatları olduğundan Respublika Hesablama Mərkəzi statistik məlumatların mərkəzləşdirilmiş qaydada yığılması və işlənməsi funksiyasını həyata keçirirdi və hal-hazırda da həyata keçirir. Hazırda fərq ondan ibarətdir ki, BHM bütün sahələr üzrə rəsmi statistika hesabatlarını ayrı-ayrı müəssisə, idarə və təşkilatlardan deyil, yalnız yerli statistika orqanlarından alır.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra öz dövlət idarəetmə orqanlarını yaratmağa başladı və bunların arasında Dövlət Statistika Komitəsi də var idi. Bu zaman bütün inzibati ərazi bölmələrində statistika orqanları saxlanıldı, keçmiş Ümumittifaq Elmi-Tədqiqat və Layihə İnstitutunun filialı və Tədris Kombinatı Dövlət Statistika Komitəsi sistemində respublika tabeli hüquqi şəxs statusuna malik təşkilata çevrildi. Statistika orqanlarının statusunun dəyişməsi uçot və statistikanın səviyyəsinin, bazar iqtisadiyyatına keçidin mürəkkəb şəraitində müstəqil sosial-iqtisadi siyasət həyata keçirən respublika rəhbərliyinin məlumatlarla təmin edilməsinin əsas şərti olmuşdur. Belə ki, Azərbaycanın ictimai-siyasi quruluşunun dəyişməsi, iqtisadiyyatın bazar münasibətlərinə istiqamət götürməsi rəsmi statistikada islahatların keçirilməsinə zərurət yaratdı. Keçid dövründə Azərbaycanın siyasi və iqtisadi həyatındakı əhəmiyyətli dəyişikliklər rəsmi statistikada da müvafiq ciddi dəyişiklikləri, ümumdünya statistika praktikası, beynəlxalq standartlar, göstəricilər və iş metodları ilə yaxınlaşmaları tələb etdi. Bu məqsədlə, ölkə prezidenti tərəfindən 1992-ci ildə "Uçot və statistikanın beynəlxalq standartlara uyğunlaşdırılması barədə" xüsusi fərman imzalandı.

1994-cü il Azərbaycan statistikasının tarixində xüsusi il olmuşdur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 18 fevral 1994-cü ildə "Statistika haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmış və bu tarixdən qanunun qüvvəyə minməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı imzalanmışdır. Qanunda Avropa İqtisadi Komissiyasının 1992-ci il aprelin 15-də Cenevrədə keçirilən 47-ci sessiyasının qərarı ilə təsdiq edilmiş "Avropa İqtisadi Komissiyası regionunda rəsmi statistikanın əsas prinsipləri"nin bütün tələbləri nəzərə alınmışdır.

Qanun dövlət statistika orqanlarının nüfuzunun artması, hesabat intizamının yüksəlməsi və dövlət məlumatlandırma sisteminin əsas tərkib hissəsi sayılan dövlət statistika sisteminin təkmilləşdirilməsində əsas rol oynayır.

Qanunun tələblərinə uyğun olaraq, 1994-cü ildə və sonrakı illərdə dövlət statistika sisteminin strukturunda, fəaliyyətində və statusunda yeni dəyişikliklər baş vermişdir. Bununla əlaqədar Nazirlər Kabinetinin 6.11.1995-ci il tarixli, 238 saylı qərarı ilə "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi haqqında" yeni əsasnamə təsdiq edilmişdir.Əsasnamədə deyilirdi: "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi respublikanın iqtisadi və sosial sahələrində vahid metodologiya əsasında statistik məlumatlar sisteminin fəaliyyətini təmin edir. Dövlət Statistika Komitəsi Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları sistemində fəaliyyət göstərən, statistika və uçot işinə rəhbərlik edən müstəqil mərkəzi iqtisadi dövlət idarəetmə orqanıdır".

Statistik hesabatların işlənməsi üçün müasir texnoloji və texniki tələblərə cavab verən proqram təminatları hazırlanmış və mütəxəssislərin istifadəsinə verilmişdir. İlkin məlumatların rayon (şəhər) statistika idarələrinin mütəxəssisləri tərəfindən işlənilə bilməsinə nail olmaq üçün regionlarda ardıcıl olaraq tədris kursları təşkil edilmiş və beləliklə, qarşıya qoyulmuş məqsədə nail olunmuşdur.

Yeni məlumat bazaları texnologiyalarının tətbiqi üsullarından istifadə etməklə, statistikanın bütün sahələrini əhatə edən makro göstəricilər bazası yaradılmış və interaktiv rejimdə informasiyanın daxil edilməsi, təqdim olunması həyata keçirilmişdir. Beləliklə, dövriliyi təmin olunmaqla, 2 milyona yaxın göstəricinin interaktiv rejimdə işlənməsi təmin olunmuşdur. Dövlət Statistika Komitəsinin müasir tələblərə cavab verən və məlumat tutumu yüksək olan Veb səhifəsi yaradılmışdır. Bu səhifənin hazırlanmasında yeni texnoloji imkanlardan istifadə edilmiş, məlumat bazasına giriş, axtarış sisteminin tətbiqi, kitabxanadan istifadə üçün geniş imkanlar yaradılmışdır. Statistikanın bütün sahələrini əhatə edən hesabat formalarının hesabat blankları, hesabatların tərtib olunmasına dair təlimatlar və hesabatların elektron formada təqdim edilə bilməsi üçün proqram vasitələri səhifədə yerləşdirilərək istifadəçilərin ixtiyarına verilmişdir. Gündəlik istifadəçilərin sayı səhifəyə müraciətin intensivliyindən asılı olaraq, 250-360 girişə bərabərdir. Vaxtaşırı olaraq statistikanın bütün sahələrini əhatə edən illik, rüblük və digər məcmuələrin yeni məlumatlarının səhifədə yerləşdirilməsi həyata keçirilir.

Böyük həcmli məlumat mübadiləsinin yüksək sürətlə ötürülməsi təmin edilməklə, onun çevikliyi və etibarlılığı son dərəcə yüksəldilmiş, məlumat şəbəkəsinə icazəsiz girişlərin mümkünsüzlüyü və ötürülən məlumatların məxfiliyitəmin edilmişdir. Əvvəllər tətbiq edilən sahələr statistikasından mövcud müəssisələr statistikasına keçidlə əlaqədar olaraq, son illər ölkə iqtisadiyyatında baş verən sosial-iqtisadi proseslərin müxtəlif aspektlərini daha düzgün əks etdirən statistik hesabatların və göstəricilərin tərkibi müəyyənləşdirilmiş və təkmilləşdirilmişdir. Hesabat formalarının inteqrasiyası həyata keçirilmiş, hesabatlarda əsas fəaliyyətlə yanaşı digər fəaliyyət növləri haqqında göstəricilərə də yer ayrılmış, ölkədə bütün fəaliyyət növləri üzrə vahid statistika formalarının tətbiqinə başlanmışdır.

Ölkədə milli hesablar sisteminin işlənməsi üçün əsasən Avropa İttifaqında istifadə olunan və "Birləşmiş iqtisadi hesabların Avropa sistemi" kimi məşhur olan BMT MHS variantından istifadə edilir. Bu variantdan istifadə etməklə, 1990-1998-ci illər üçün respublika səviyyəsində milli hesablar yaradılmışdır. Ümumi daxili məhsul (ÜDM) göstəricisinin milli hesablar sistemində əsas makroiqtisadi göstərici hesab edildiyini nəzərə alaraq, BMT-nin mövcud metodologiyasına uyğun olaraq Dövlət Statistika Komitəsi cari və müqayisəli qiymətlərlə sahə və bölmələr üzrə ÜDM-in illik, rüblük və aylıq hesablamalarını həyata keçirir. 1993-cü ildən başlayaraq, müqayisəli qiymətlərlə ÜDM-in aylıq qiymətləndirilməsi Dövlət Statistika Komitəsi tərəfindən təhlil edilir və müxtəlif nəşrlərdə dərc etdirilir. Bu işlər Beynəlxalq Valyuta Fondunun (BVF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) və Dünya Bankının metodoloji köməyi və məsləhətləri ilə həyata keçirilmişdir.

Statistikada həyata keçirilən yeniliklər son nəticədə öz əksini statistika orqanlarının son məhsulu olan statistik nəşrlərdə tapmışdır. Son illər bu sahədə bir sıra nailiyyətlər əldə edilmiş, nəşrlərin keyfiyyəti yaxşılaşdırılmış, mövzular genişləndirilmiş, yayılma dairəsi genişləndirilərək ingilis dilində nəşrlərə başlanmışdır. 2002-ci ildə ilk dəfə "Statistik nəşrlərin kataloqu"nun azərbaycan və ingilis dillərində dərc edilməsinə və istehlakçılar arasında

yayılmasına başlanmışdır. Son illərdə geniş əhali təbəqəsinin, sahibkar, maliyyə və bank strukturlarının marağına uyğun olaraq, məlumatların sərbəst alınması hüquqlarının təmin edilməsi üçün statistik məlumatların yayılması metodlarının və qaydalarının təkmilləşdirilməsi həyata keçirilmişdir. Məlumatların istifadəçilərə elektron rabitə vasitələri, xüsusən də internetlə çatdırılması, beynəlxalq təşkilatlarla və başqa ölkələrin statistika orqanları ilə informasiya mübadiləsi təmin edilmişdir. Statistik məlumatlar mütəmadi olaraq ölkənin kütləvi informasiya vasitələrində, radio və televiziya kanallarında işıqlandırılmışdır. Rüblərin yekunları üzrə ölkənin rəsmi iqtisadi-statistik göstəricilərinə dair kütləvi informasiya vasitələrinin nümayəndələri ilə mətbuat konfranslarının keçirilməsi daimi xarakter almışdır.

2002-ci ildən istifadəçilərin istifadəsinə verilmiş beynəlxalq standartlara cavab verən kitabxananın yaradılması statistik materialların yayılmasına daha geniş imkanlar açmışdır. Ümumilikdə, son illərdə kitabxananın xidmətindən ildə 3 min nəfərdən çox, internet saytından isə 100 mindən çox adam istifadə edir.

Ölkədə statistikanın yenidən qurulmasında müntəzəm olaraq beynəlxalq təşkilatların və xarici dövlətlərin milli statistika orqanlarının mümkün əməkdaşlığından geniş istifadə edilir. Avropa Statistika Bürosu ilə birlikdə Dövlət registrinin, müəssisələr statistikasının (sənaye, kənd təsərrüfatı, əsaslı tikinti və ticarət statistikası üzrə), demoqrafiya, əmək, gizli iqtisadiyyat və xarici ticarət statistikasının və statistik materialların beynəlxalq tələblərə uyğun nəşrləri, beynəlxalq standartlara uyğun təsnifatların yaradılması və təkmilləşdirilməsi, həmçinin ölkə statistika sisteminin kompüterlərlə təmin edilməsi sahəsində layihələr həyata keçirilmişdir. Bu layihələrin həyata keçirilməsi Almaniya, Hollandiya, İsveç, Finlandiya və Polşanın statistika orqanlarının ekspertlərinin yaxından köməyi ilə həyata keçirilmiş və statistikanın müxtəlif istiqamətlərində Türkiyə Cümhuriyyəti Dövlət Statistika İnstitutu ilə sıx əməkdaşlıq yaradılmışdır.

Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra Dövlət Statistika Komitəsi BMT və onun regional iqtisadi komissiyaları, Avropa Birliyi, BVF, BƏT, Dünya Bankı, Asiya İnkişaf Bankı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, UNESKO, UNİSEF, İƏİT, İƏT, Beynəlxalq Nəqliyyat Forumu, Beynəlxalq Miqrasiya Təşkilatı, "21-ci yüzillikdə inkişaf üçün statistika sahəsində əməkdaşlıq" konsorsiumu, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Yol Federasiyası, TRASECA, UNİDO, Beynəlxalq Energetika Agentliyi, Avropa İqtisadi Komissiyası, Avropa Statistika Bürosu, MDB Dövlətlərarası Statistika Komitəsi, Qara dəniz ölkələrinin Əməkdaşlıq Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya və Sakit Okean Hövzəsi ölkələrinin İqtisadi-sosial Komissiyası, Avropa Sosial Xartiyası kimi beynəlxalq təşkilatlarla və dünyanın 40-dan çox ölkəsinin statistika orqanları ilə əməkdaşlıq edir və məlumat mübadiləsi aparır.

Əldə olunmuş nailiyyətləri daha da inkişaf etdirmək üçün Azərbaycan hökuməti tərəfindən 2006-cı il noyabrın 14-də qəbul olunmuş Avropaya İnteqrasiya üzrə Avropa Qonşuluq siyasəti çərçivəsində Azərbaycan və Avropa İttifaqı arasında Fəaliyyət Planında da Azərbaycanda statistikanın inkişafına xüsusi diqqət ayrılmışdır.

Bu gün heç vaxt olmadığı kimi, statistik məlumatların keyfiyyəti statistiklərin peşəkarlığından, onların statistik müşahidələri bacarıqla təşkil etməsindən və aparılmasından, respondentlərdən alınmış məlumatların təhlilindən, onların səhvlərini aşkara çıxarmaqdan, rəsmi statistika metodologiyaları əsasında göstəricilərin hesablanmasını həyata keçirməkdən ibarətdir. Təcrübə göstərir ki, statistik məlumatların toplanması yalnız çox böyük əmək və vəsait tələb etmir, həmçinin müxtəlif bilikləri, müasir iqtisadiyyat və sosial həyatı başa düşməyi tələb edir. Əgər bunlar olmasa, sosial-iqtisadi hadisələr başa düşülmürsə, onda göstəricilərin hesablanması çətinləşir, keyfiyyət aşağı düşür. Bunları, nəzərə alaraq, Dövlət Statistika Komitəsi 1992-ci ildən başlayaraq. beynəlxalq təşkilatların və xarici ölkələrin mütəxəssislərinin köməyi ilə həm Azərbaycanda, həm də xarici dövlətlərdə seminar və kurslar təşkil edilmişdir. Belə seminar və kurslar arasında BVF və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən uyğun olaraq "MHS" və "Rəsmi statistikanın əsasları" mövzularında keçirilmiş kursları xüsusi qeyd etmək olar. Bunlardan əlavə, xarici



ölkələrin bir çox ekspertləri statistikanın müxtəlif sahələri üzrə kömək göstərmək məqsədilə Bakıya gəlmiş və 1993-2015-ci illərdə Dövlət Statistika Komitəsinin 850-dən çox mütəxəssisi xarici ölkələrdə təşkil edilmiş seminar və kurslarda, beynəlxalq konfranslarda iştirak etmişdir

Statistikanın bir çox əməkdaşları statistika orqanlarında müvəffəqiyyətli işlərinə görə orden və medallarla, fəxri fərmanlarla mükafatlandırılmış, respublikanın "Əməkdar iqtisadçı"sı adına layiq görülmüşdür. Əldə olunan məlumatlara görə, 20-ci əsrin 50-ci illərindən sonra 50 nəfər ordenlə, 67 nəfər medallarla, 87 nəfər isə Fəxri Fərmanı ilə mükafatlandırılmışdır. Bundan əlavə, 21 nəfərin adı SSRİ DSK-nin "Fəxri Kitabı"na, 85 nəfərin adı isə Azərbaycan Respublikası DSK-nin "Fəxri Kitabı"na yazılmışdır, 230 nəfər SSRİ DSK və 74 nəfər Azərbaycan Respublikası DSK-nin Fəxri Fərmanı ilə təltif edilmişdir. Əmək fəaliyyətlərinə görə 18 nəfər Azərbaycanın "Əməkdar iqtisadçı"sı adına, 65 nəfər isə "Əmək veteranı" adına layiq görülmüşlər.

Bu ənənələr Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra da davam etdirilir. Son illərdə öz fəaliyyətində fərqləndiklərinə görə statistiklər orden və medallarla təltif olunmu

Binəqədi rayon Statistika Şübəsinin kollektivi rayon ərazisindəki Heydər parkında ucaldılmış Ulu ündər Heydər Əliyevin heykəlini ziyarət etmiş və ünğnə gğl dəstələri qoymuşlar.















